

**SEYFƏDDİN QƏNDİLOV,**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının rektoru

## HEYDƏR ƏLİYEV VƏ DÖVLƏT İDARƏÇİLİYİ

Cənab Prezident Heydər Əliyevin dövlət idarəçiliyinin nəzəriyyə və təcrübəsinə töhfəsi o qədər geniş və hərtərəflidir ki, bir çıxış və ya məqalə həcmində onu ətraflı əhatə etmək şübhəsiz ki, qeyri-mümkündür.

Cənab Heydər Əliyevin şəxsində biz tarixdə nadir bir şəxsiyyətin timsalında iki ictimai-iqtisadi formasiyanın dövlətçilik təcrübəsinin əks olunduğunu görürük. Belə ki, o, SSRİ-nin tərkibində ittifaq respublikalarının birinin rəhbəri kimi, Sovet İttifaqının rəhbərlərindən biri kimi, Muxtar Respublikanın rəhbəri kimi, nəhayət, suveren Azərbaycan dövlətinin Prezidenti kimi fəaliyyət göstərmişdir. XX əsrin görkəmli siyasətçilərindən birinin əsas fəaliyyətini məhz bu cür xarakterizə etmək olar.

Cənab Heydər Əliyevin zəngin dövlət idarəçilik təcrübəsinin böyük bir hissəsi sovet dövrünə təsadüf edir. Həmin dövrdə bu təcrübədə sovet dövlətinin məqsəd və məzmunu, siyasi, ideoloji, idarəetmə prinsipləri və məqsədi öz əksini tapır. O zaman həmin formasiyanın funksiyalarını yerinə yetirən dövlət başçısı kimi Heydər Əliyev eyni zamanda iqtisadiyyatın, elm və mədəniyyətin inkişafı üçün zəruri olan geniş miqyaslı məsələlərin həllinə də böyük diqqət yetirirdi.

70-80-ci illərdə respublikanın iqtisadi strukturunu təhlil edərkən, bir daha aydın olur ki, həmin illərdə iqtisadiyyatın dirçəldilməsi və inkişafı, yəni nəhəng energetika kompleksi, elektrotexnika, kimya sənaye sahələri, neft maşınqayırma və digər sahələr yaradılıb inkişaf etdirilmədən, yəqin ki, bu gün suveren Azərbaycan dövlətini qurmaq çətin olardı. Bunlarla yanaşı, onun həmin dövrdəki məruzə, nitq, kitab, məqalə və çıxışlarında sosial və dövlət idarəçiliyinin nəzəri metodoloji prinsipləri, istehsalatın effektli təşkili, elmin məqsədli və sürətli inkişafı, təhsil, mədəniyyət, səhiyyə, elmi-texniki tərəqqi məsələləri öz əksini tapmışdır.

Heydər Əliyev öz ölkəsinin, xalqının ümumi maraqlarından irəli gələn sosial-iqtisadi, siyasi məsələləri geniş miqyasda həll etməyə qadir olan dövlət xadimlərindəndir. Onun prinsip və ideyalarında Azərbaycan xalqının milli maraqları, o cümlədən dövlət idarəçiliyi məsələləri mühüm yer tutur.

Millətin sosial və mənəvi sağlamlığı, şəxsiyyət və ailə problemləri, müasir təhsil sisteminin yaradılması məsələləri, müasir dünyada Azərbaycan xalqının özünütəsdiqi və özünü idarəetməsi, iqtisadiyyat, maliyyə, mədəniyyət, təhsil, informasiya strukturlarının müasir dünyaya inteqrasiyası-məhz bu kimi milli maraqlar Heydər



Əliyevin dövlət idarəçiliyi təcrübəsində prioritet yer tutur ki, bu da öz növbəsində gələcəkdə bu sahədə ciddi və dərin tədqiqatlar aparılmasını zəruri edir.

Cənab Heydər Əliyevin fəaliyyəti bir-birinə zidd olan iki müxtəlif ictimai-siyasi sistemin qovuşuğunda keçmiş və bunların hər ikisindən bacarıqla istifadə edərək o, xalqımızı çox şöhrətləndirmiş, Azərbaycanı daim irəli aparmışdır. Bütün bu illər ərzində onun bilavasitə rəhbərliyi altında respublika həyatının müxtəlif sahələrində çox böyük işlər görülmüş, mühüm nailiyyətlər qazanılmışdır. 1969-cü ildən bəri respublika iqtisadiyyatının ikişafı, böyük quruculuq işləri, elmi-mədəni tərəqqimiz xalq içərisində hakimiyyət ustası kimi tanınan bu nadir şəxsiyyətin adı ilə bağlıdır.

1988-1993-cü illərdə Azərbaycanın başına gətirilən müsibətlər, torpaqlarımızın işğalı, bu gün qarşımızda bütün kəskinliyi ilə dayanan qaçqınlar problemi, o zaman respublikada qarşıdurmanın qızışdırılaraq vətəndaş müharibəsi səviyyəsinə çatdırılması Heydər Əliyevin siyasi arenadan uzaqlaşdırılmasından sonra başlanmışdır.

Heydər Əliyev məhz belə bir anda xalqın iradəsi və qətiyyətli tələbi ilə yenidən Azərbaycanın dövlət rəhbərliyinə qaytarıldı. Heydər Əliyev respublika rəhbərliyinə qayıdıb dövləti idarə etməyə başlarkən, bir tərəfdən Vətənin yaralarından qan axır, digər tərəfdən də daxildə çox ağır və mürəkkəb bir ictimai-siyasi vəziyyət mövcud idi. Lakin dövlət idarəçiliyində zəngin təcrübəyə və hərtərəfli geniş biliklərə malik olması ona az vaxt içərisində konkret vəziyyəti dərindən təhlil edərək, düzgün qərarlar qəbul etməyə və ölkəni düşdüyü ağır, böhranlı vəziyyətdən çıxarmağa imkan verdi.

Xalqımızın müstəqil yaşamaq arzu və istəyinə, dövlətçilik sahəsindəki tarixi ənənələrinə söykənən Heydər Əliyev özünün parlaq və aydın zəkası, zəngin bilik və təcrübəsi sayəsində düşdüyümüz ağır şəraitdə yeni, düzgün siyasət xətti müəyyən edə bildi. Az müddət içərisində çevik, müxtəlif gedişli xarici siyasət yeridilməsi nəticəsində beynəlxalq mövqelərini tədricən möhkəmləndirən Azərbaycan dünya birliyində layiqli yer tuta bildi.

Müstəqilliyimizin çətin yollarında son on il həqiqətən xüsusi yer tutur. Məhz bu illərdə görülmüş işlər Azərbaycan üçün xüsusilə faydalı və əhəmiyyətli olmuşdur. Belə ki, həyata keçirilmiş iqtisadi islahatlar nəticəsində iqtisadiyyatımızın, gələcək inkişafımızın yeni, möhkəm təməli qoyulmuşdur. Bu illər ərzində Azərbaycanda daxili ictimai-siyasi sabitlik yaradılmış, Azərbaycan ətrafındakı blokada yarılmış, Azərbaycan haqqındakı həqiqət dünya ictimai fikrinə çatdırılmışdır. Bu illər ərzində ölkəmizdə demokratik mühit formalaşmış, Azərbaycan xalqı və onun dövlətçiliyi xilas edilmiş və möhkəmləndirilmişdir.

Bütün bunlar Heydər Əliyevin müdrik siyasəti, rəhbərlik məharəti, zəngin təcrübəsi, böyük təşkilatçılıq bacarığı sayəsində həyata keçirilmiş işlərin ancaq bir hissəsidir. Zənnimizcə, bu son on ildə görülmüş işlərin Azərbaycan üçün, xalqımız üçün əsl məna və əhəmiyyəti hələ heç də bütün dərinliyi ilə dərk olunmamış və lazımınca tədqiq edilib öyrənilməmişdir. Bu işləri dərin təhlil süzgəcindən keçirib ümumiləşdirərək, ictimaiyyətə lazımınca çatdıra bilməmişik. Əgər bu gün müəy-

yən siyasi qüvvələr tərəfindən aldadılmış adamlar varsa, bu aldadılmış insanlar ciblərini daş-kəsəklə doldurub küçələrə çıxarılırlarsa, demək bu son illərdə xalqımız üçün, müstəqilliyimiz üçün, dövlətçiliyimiz üçün görülmüş böyük işlərin əhəmiyyətini biz hələ lazımınca açıb, dərindən təhlil edib, ictimai fikrə hərtərəfli çatdıra bilməmişik. Bu, həm də onu göstərir ki, bizim başımız daşdan-daşa dəysə də, hələ tam oyana, içimizdəki qaranlığı, zülməti, hakimiyyət hərisliyini boğa bilməmişik. Hələ də tam dərk edib başa düşməmişik ki, keçmiş fəlakətlərlə bir də üzləşəriksə, yenidən ayağa qalxa bilərikmi? Yenidən ikinci bir Heydər Əliyev yaradıb, Azərbaycanı xilas edə bilərikmi? Bu gün bu, hər bir azərbaycanlını dərindən düşündürməlidir. Bizim təbliğatımız da, ictimaiyyətçi alimlərimizin elmi araşdırmaları da ictimai şüuru bu səmtə istiqamətləndirməlidir. Biz hələ Heydər Əliyevin özünü böyük bir şəxsiyyət kimi dərindən tədqiq edib öyrənməmişik, bu böyük siyasət və dövlət adamının idarəçilik məharətini, dövlətçilik ideyalarını, bu ideyaların nəzəri və praktiki aspektlərini hələ lazımınca öyrənə bilməmişik.

Heydər Əliyev dövlət idarəçilik elmini özünün nəzəri biliyi, dərin zəkası, böyük təşkilatçılıq məharəti və səmərəli əməli fəaliyyəti ilə çox zənginləşdirmişdir. Onun bu sahədəki çoxcəhətli zəngin təcrübəsi böyük bir sərvətdir. Bu, onun şəxsi əməyinin, fitri istedad və bacarığının nəticəsi olmaqla, özünə məxsus olsa da, eyni zamanda bütün Azərbaycan xalqının sərvətidir. Onun dövlət idarəçiliyi sahəsində yaratdığı bu zəngin xəzinə, Azərbaycan dövlətçiliyi tarixində həmişəlik qalacaq bu sərvəti Azərbaycanın bütün gəncləri öyrənməli, müstəqil respublikamızın idarə olunması işində istifadə etməlidirlər. Dövlət İdarəçilik Akademiyasında hazırlanan gənc mütəxəssis kadrların bu təcrübəni öyrənmələrinə biz xüsusi fikir veririk.

Bəzən düşünürsən ki, axı necə ola bilir ki, bir insanın şəxsində elmi-nəzəri fəaliyyət yaradıcı işlə, fəlsəfi təfəkkür ictimai-siyasi praktika ilə eyni vaxtda bu cür səviyyədə birləşir?! Bax bu, nadir hadisədir, bax, bu, nadir şəxsiyyətlərə xas olan xüsusiyyətdir. Həmin cəhət araşdırılmalı və elmi cəhətdən ümumiləşdirilməlidir. Odur ki, xalqımız üçün həlledici, həyati əhəmiyyətli, tale məsələsi olan bu son on ilin tarixi və görülmüş işlərin məna və əhəmiyyəti tarixçilərimiz, filosoflarımız, bütün ictimaiyyətçi alimlərimiz tərəfindən dərindən öyrənilib elmi-nəzəri təhlil süzgəcindən keçirilməli, Azərbaycan ictimai fikrinə çatdırılmalıdır. Məhz belə dərin tədqiqatlar nəticəsində Heydər Əliyev dühasının böyüklüyü, bu nadir şəxsiyyətin XX əsrin son 33 ilində Azərbaycanın siyasi tarixində oynadığı əvəzsiz rol haqqında, onun göstərdiyi misilsiz xidmətlərə layiq obyektiv və ümumiləşdirilmiş fikir söyləmək olar və lazımdır. Əlbəttə, bu, gələcəkdə geniş və əsaslı surətdə öyrəniləcəkdir. Ancaq bu, bugün daha çox zəruridir. Çünki müstəqilliyin çətin yollarında qarşımızda hələ çox böyük işlər, çətinliklər, manеələr durur. Bu çətin yolu nisbətən ağrısız-acısız keçmək üçün bugünkü işlərin mahiyyətinin düzgün dərk edilməsi çox vacib və həm də əhəmiyyətlidir.

Bu elmi araşdırmalarda ümummilli lider Heydər Əliyevin fəlsəfi-siyasi ideyaları dəqiqliklə öyrənilməli və sistemləşdirilməlidir. Biz bunu Akademiyamızın mühüm elmi istiqamətlərindən biri hesab edirik.



Bizim dövlətçilik tariximiz, dövlətçilik ənənələrimiz çox qədim və həm də zəngindir. Ona görə də bu dövləti qurarkən, müstəqilliyimizi yenidən bərpa edərkən, biz dövlətçilik ənənələrimizə söykənmişik, ondan istifadə etmişik. Bu ənənələr məhz cənab Heydər Əliyevin rəhbərliyi altında yaşadılır və təkmilləşdirilir.

Prezident Heydər Əliyevin rəhbərliyi altında ictimai həyatımızın bütün sahələrində həyata keçirilən islahatlar bunu aydın göstərir. İstər iqtisadiyyatda, istər dövlət idarəçilik sistemində, istərsə də nizami ordu yaratmaq sahəsindəki islahatlarımız və ən başlıcası, milli-mənəvi dəyərlərimizə cənab Prezident tərəfindən olan qayğı, bunların hamısı son illərdə əldə etdiyimiz böyük nailiyyətlərdir. Məhz bunların sayəsində xalqımızın milli şüuru yüksəlmiş, müstəqilliyə olan inamı möhkəmlənmişdir. Xalqımız müstəqil yaşamağı, bazar iqtisadiyyatı şəraitində yaşamağı öyrənmişdir. Biz bu nailiyyətləri təbliğ etməliyik, gənclərin şüuruna, qəlbinə çatdırmağa çalışmalıyıq. İnsanlar bu on ilin çox böyük ziddiyyətli, keşməkeşli yolları ilə tanış olmaqla özləri üçün nəticə çıxarmalıdırlar. Axı, bu gün xalqımızı çaşdırmaq istəyənlər, çaşqınlıq yaratmaqla insanları dolaşıq yollara çağıranlar var. Ona görə də bu on ilin təcrübəsi bizim təbliğatımızda çox kəsərli silah olmalıdır.

Heydər Əliyev Azərbaycana rəhbərliyə başlayandan sonra ən böyük nailiyyətimiz, bizim ən böyük tərəqqimiz milli oyanışımız oldu. Xalqımızın dünyaya baxışı dəyişdi. Biz ətrafımıza yenidən baxmağa başladıq. Məhz həmin illərdə, nəinki iqtisadi yüksəlişə nail olduq, eyni zamanda bizim milli ruhlu ziyalılarımız yetişdi.

Dövlət idarəçiliyi sistemində çox qabiliyyətli, milli ruhlu kadrlarımız yetişdi. Əgər bu gün biz müstəqil Azərbaycanı cəmi 10 il ərzində bu ərsəyə gətirib çatdıra bildiksə, xalqımızın başına gələn bu qədər müsibətlər şəraitində, bizim iqtisadiyyatımıza dəyən zərbələr şəraitində biz bunları edə bildiksə, bu onun nəticəsində olmuşdur ki, məhz cənab Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi əvvəlki illərdə mili ruhlu ziyalılar, kadrlar yetişmişdi. Yəni cəmiyyət həyatının bütün sahələrində bizim yüksək səviyyəli kadr potensialımız oldu. Onlar bizim köməyimizə çatdı. Ona görə də biz bu nailiyyətləri əldə edə bildik.

Bu gün müstəqil Azərbaycanda ilk dəfə olaraq demokratik ölkələrin zəngin təcrübəsinə əsaslanan mükəmməl bir dövlət idarəçilik sistemi yaradıb formalaşdırmaq zəruri, həm də son dərəcə çətin işdir. Xalqımızın müstəqil yaşamaq arzu və istəyinə, dövlətçilik sahəsindəki tarixi ənənələrinə söykənən Heydər Əliyev dühası, onun parlaq və aydın zəkası, zəngin bilik və təcrübəsi bu çətin işin öhdəsindən müvəffəqiyyətlə gəlməyə imkan verir.

Yaxın tariximiz müstəqil Azərbaycan dövlətini xilas edəcək, onu idarə edə biləcək ümummilli liderə, ümumxalq rəhbərə və bacarıqlı rəhbər kadrlara nə qədər böyük ehtiyac olduğunu bariz şəkildə nümayiş etdirdi. Məhz buna görə də dövlət idarəçiliyi mexanizminin təkmilləşdirilməsi tədbirləri sistemində dövlət idarəetmə sahəsi üçün mütəxəssislər hazırlanması işinin müasir tələblərə uyğun qurulması, onların peşəkarlıq

səviyyəsinin artırılmasının təşkili və həmin sahənin analitik informasiya təminatının möhkəmləndirilməsi kimi kompleks tədbirləri həyata keçirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması dövlətimizin möhkəmlənməsi və elmi əsaslarla idarə olunması baxımından yeni mərhələnin başlanğıcı kimi çox böyük əhəmiyyətə malikdir.

Fikrimizcə, indiki şəraitdə vacib problemlərdən biri də idarəetmə mədəniyyətinin mədəni-tarixi proses, tarixi ənənələr və xalqın dövlət quruculuğu sahəsində topladığı təcrübə ilə üzvü surətdə əlaqələndirilməsi məsələsidir. Biz indi tarixi inkişafımızın elə bir mərhələsindəyik ki, burada bu dəyərlərin səmərəli əlaqələndirilməsinə böyük nəzəri və praktik ehtiyac duyulur.

İnkişafımızın yeni mərhələsində Qərb və Şərq dövlətlərinin təcrübəsinin öyrənilməsi, təhsilə və mədəniyyətə düzgün tətbiqi olduqca zəruri haldır. Bununla belə dünyanın istənilən dövlətinin hər hansı bir təcrübəsindən istifadə edən hər bir xalq öz tarixinin, mədəniyyətinin, etnik şüur və psixologiyasının, adət-ənənələrinin xüsusiyyətlərini də nəzərə almalıdır. İdarəçilik obyektləri bir çox cəhətləri, parametrləri, forma və mahiyyətləri ilə fərqlənirlər. Az vaxtdan sonra bu fərqlər şübhəsiz ki, daha dərindən öyrəniləcək, idarəçilik prinsipləri daha da formalaşdırılacaq və müasir dünyanın son dərəcə təcrübəli, siyasi xadimi Heydər Əliyevin 33 ildən bəri sükanı arxasında dayandığı dövlətimiz getdikcə daha da möhkəmlənəcək və dünya dövlətləri arasında daha mütərəqqi, daha layiqli yer tutacaqdır.

Ölkəmizin gələcəyi gənclərdir. Prezidentimiz bu gün onlara hər cür şərait və imkan yaradır, bu işi öz fəaliyyətinin başlıca istiqamətlərindən biri hesab edir.

Bugün idarəçilik sisteminə yeni, gənc, bacarıqlı kadrlar cəlb olunur və olunmalıdır. Dövləti idarə işini gənclər öz əllərinə almalıdırlar. Cənab Prezident çox böyük müdriklik göstərərək, bu gün daha çox xalqımızın intellektual potensialına, onun bacarıqlı və ağıllı gənc qüvvələrinə arxalanır. Çünki müstəqil Azərbaycan dövlətini idarə etmək üçün yeni ruhlu, demokratik düşüncəli gənc rəhbər kadrlara bu gün böyük ehtiyac vardır. Odur ki, indidən hər sahədə güclü, idarəçilik bacarığı yüksək olan rəhbər kadrlar yetişdirmək lazımdır. Məhz buna görə də cənab Heydər Əliyevin xüsusi qayğısı və fərmanı ilə Dövlət İdarəçilik Akademiyası yaradılmışdır. Bu yeni elm və təhsil ocağında yeni tərzdə düşünməyi bacaran, saf əxlaqa, milli-mənəvi dəyərlərimizə, Azərbaycanın müstəqilliyinə, dövlətçiliyimizə sədaqətlə xidmət edəcək kadrlar hazırlanacaqdır.

Bu böyük qayğıya layiq olmaq üçün, idarəçilik işini öyrənmək üçün gənclərimiz Heydər Əliyev irsini, bu böyük dövlət xadiminin, bu nadir şəxsiyyətin dövlətçilik təcrübəsini, dövlətçilik fəaliyyətini öyrənib əxz etməlidirlər.

İdarəçilik sahəsindəki hər bir mütəxəssis idarəçilik nəzəriyyəsi, təcrübəsi və sənətinə yiyələnməli, öz fəaliyyətinin məqsəd və vəzifələrini dəqiq müəyyən etməli, bu məqsədə nail olmağın strategiya və taktikasını müəyyənləşdirməyi, idarəetmə qərarları qəbul etməyi və bütün bunlar üçün məsuliyyət daşımağı bacarmalıdır. O, eyni zamanda idarəetmənin müasir forma və metodlarını dərindən öyrənməli və mənimsəməlidir.



Bugün idarəçilik işi xeyli çətinləşmişdir. Çünki idarəçi təkcə bu günün haqqında deyil, həm də daim perspektiv məsələlər, strateji məsələlər haqqında düşünməlidir.

Bugün Azərbaycandakı iqtisadi və siyasi sabitlik idarəçilik işinin səmərəliliyi ilə bilavasitə əlaqədardır. İdarəçilik işinin səmərəliliyinin müntəzəm olaraq artırılması təkcə idarəçilik-təşkilatçılıq vəzifəsi yox, həm də qarşıda duran çox mühüm siyasi vəzifədir. Odur ki, bugün dövlət idarəçiliyinin bütün səviyyələrində yüksək keyfiyyətli ehtiyat kadrlarının hazırlanması işinə xüsusi diqqət yetirilir.

İdarəçilik nəzəriyyə ilə təcrübənin vəhdəti deməkdir, bu bilavasitə idarəçilik təcrübəsini ümumiləşdirən bir elmdir. Bazar iqtisadiyyatı şəraitində rəhbər olan şəxs təşəbbüskar, yaradıcı adam olmalıdır. Dövlət idarəçilik sisteminin əsaslı surətdə formalaşdırılması bugün Azərbaycanda aparılan iqtisadi islahatların ən mühüm və ən başlıca vəzifələrindən biridir. Eyni zamanda nəzərə alınmalıdır ki, güclü, səmərəli fəaliyyət göstərməyə qadir olan hakimiyyət bütün bu dəyişikliklərin birinci əsas və başlıca şərtidir. Onsuz iqtisadi yüksəlişi, əsl demokratiyanı, yüksək mədəniyyət və mənəvi-əxlaqi dəyərləri təmin etmək mümkün deyildir.

Hər bir nəsil gələcəyini özü müəyyən edir, öz inkişaf yolunu özü müəyyən edir. Mədəni xalqlar bu işi sarsıntılarsız, keçmişi inkar etməklə yox, hamı üçün ümumi olan mərhələləri özünəməxsus tərzdə keçir. Bugün Azərbaycan xalqı da öz seçimini etmişdir. Bu demokratik hakimiyyət yoludur. 1995-ci ildə yeni konstitusiyaya səs verməklə xalqımız özünün bu məramını təsdiq etmiş oldu. Bu həm hakimiyyət orqanı və həm də əhali tərəfindən icrası zəruri olan qanunun qəbul edilməsi idi. İdarə etmək üçün dövlətçilik təfəkkürü, yüksək vətənpərvərlik hissi, möhkəm iradə və inam olmalıdır. Bütün bu yüksək keyfiyyətləri biz möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin şəxsiyyətində görürük.

Biz bugün çox böyük tarixi dəyişikliklərin baş verdiyi bir dövrdə yaşayırıq. Bu dəyişikliklər sosial-siyasi, iqtisadi sahə ilə yanaşı, həm də insanın özünü əhatə edir. Cəmiyyətdə baş verən bu dərin dəyişikliklər bizim özümüzü də dəyişməyə vadar edir, yeni biliklər, yeni şəraitə uyğunlaşmağı, zamanın çağırışına cavab verməyi tələb edir.

Hörmətli Prezidentin uzaqgörən siyasəti və göstərişi ilə iqtisadi islahatlarla yanaşı, dövlət idarəetmə sistemində islahatlar keçirilməsinə başlanmışdır. Hazırda bu islahatları həyata keçirmək üçün dövlət komissiyası da yaradılmışdır. Bu islahatlar aparılmadan, idarəçilik sistemində struktur dəyişikliklər olmadan, biz bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərə bilmərik. İqtisadi islahatlar dövlət idarəçiliyi sistemində olacaq islahatlara şərait yaratmalıdır.

Bütün bunları deməkdə məqsədim hörmətli Prezidentimiz cənab Heydər Əliyevin yeritdiyi indiki siyasətin təkcə bu gün üçün deyil, Azərbaycanın gələcəyi üçün, dövlətçiliyimizin gələcəyi üçün nə qədər böyük əhəmiyyətə malik olduğunu bir daha qeyd etməkdir. Ancaq böyük şəxsiyyətlər, xalqını, Vətənini, dövlətçiliyi

qəlbən sevən adamlar bu cür düşünə bilərlər. İllər, onillər keçəcək, bugünkü Azərbaycanda Heydər Əliyevin gördüyü böyük işlərin məna və əhəmiyyəti, dövlət idarəçiliyindəki zəngin təcrübəsinin əhəmiyyəti gələcəkdə özünü daha bariz şəkildə göstərəcəkdir.

Qısa bir müddətdə həyat, ictimai inkişafın gedişi aydın göstərdi və bir daha təsdiq etdi ki, cənab Heydər Əliyevin təşəbbüsü və başçılığı ilə Azərbaycan cəmiyyətinin demokratikləşməsi, iqtisadi islahatlar yolu, yeganə düzgün yoldur. Bütün bu tədbirləri cənab Heydər Əliyev çox dəqiq və öz vaxtında, həm də dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi şəraitində həyata keçirdi.

Bir çox başqa ölkələr kimi, Azərbaycan üçün də sosial-siyasi şəraitin sürətlə dəyişilməsi xarakterik cəhətdir. Bu isə öz növbəsində idarəçilik sahəsində, idarəetmə sahəsində də buna münasib dəyişikliklər etməyi tələb edir. Bir çox onillər ərzində yaranmış köhnə üsullar, köhnə stereotiplər bu gün artıq yaramırlar. İrəli getmək üçün yeni fikirlər, təzə qərarlar, idarəçilik işində mütərəqqi dəyişikliklər gərəkdir. Rəhbərlik, idarəçilik işinin həddən artıq mərkəzləşdirilmiş olduğu əvvəlki vaxtlardan fərqli olaraq indi idarəetmə kadrlarının nəzəri və praktiki hazırlığı səviyyəsinə tələb də artmışdır. Müasir rəhbər işçi bugün sürətlə dəyişilən sosial-iqtisadi şəraitdə özü müstəqil olaraq məsul, çox hallarda isə qeyri standart qərarlar qəbul etməyi bacarmalıdır. Cənab prezident Heydər Əliyev hələ 1994-cü ildə demişdir: "İndiki dövrdə iş üslubumuz əvvəlki dövrün iş üslubundan fərqlənməlidir. İndi biz başqa dövrdə, başqa şəraitdə yaşayırıq. İqtisadiyyatımızda köklü proseslər gedir. Buna görə də hər bir sahədə əməli işlə məşğul olmaq gərəkdir. Adamlara sərbəstlik verilməlidir ki, hərə öz sahəsində sərbəst işləsin, azad fəaliyyət göstərsin".

Rəhbər - idarəçi deməkdir. İdarəetmək isə dövlətin vəziyyəti deməkdir. Heydər Əliyevin idarəçilik təcrübəsi, idarəçilik məharəti və idarəçilik məktəbi bizə bunları öyrədir.

Həyat dönə-dönə təsdiq etmişdir ki, dünyanın siması bütün xalqlar və ölkələr üçün vahid, universal bir sxemdə ola bilməz. Odur ki, bugün dünyada çoxlu sosial-iqtisadi və sosial-mədəni modellər mövcuddur. Məhz buna görə də Heydər Əliyevin idarəçilik təcrübəsi ümumbəşəri dəyərləri yerli, milli dəyərlərlə üzvü surətdə əlaqələndirməyi bacarmağı, eyni zamanda öz inkişaf yolumuzu da yaddan çıxarmamağı bizə tövsiyyə edir. Bu yolumuzun başlıca memarı bugün məhz cənab prezident Heydər Əliyev, onun zəngin idarəçilik bacarığıdır. Heydər Əliyevin rəhbərlik, idarəçilik fəaliyyətinin əsasını məhz bu vacib məsələyə bu cür yanaşma təşkil edir. Heydər Əliyevin idarəçilik nəzəriyyəsi dövlət quruculuğu işində vaxtı çatmış belə məsələləri bizim milli mənafelərimizin tələb etdiyi səviyyədə həll etməyi öyrədir.

Dövlət başçımız bizdən eyni zamanda, rəhbər kadrlardan istifadə etməyin səmərəliliyini artırmağı, bu işə diqqətlə yanaşmağı tələb edir. Bu, bizim kadr siyasətimizin əsas istiqamətlərindən biridir. Ölkənin iqtisadi və siyasi sabitliyi üçün çox əhəmiyyətli olan bu məsələyə ölkə başçısı xüsusi diqqət yetirir. Bu, təkcə idarəçilik əhəmiyyəti kəsb edən təşkilatçılıq məsələsi yox, həm də çox mühüm siyasi əhəmiyyət kəsb edən bir məsələdir.



Məlum olduğu kimi, köhnə rəhbərlik dövründə, 1991-1993-cü illərdə respublikada iqtisadi və siyasi proseslərə rəhbərlik demək olar ki, itirilmiş, rəhbər kadrlarla iş sistemi tamamilə pozulmuş və dağılmışdı. Odur ki, Heydər Əliyev hakimiyyətə qayıtdıqdan və seçkilərdən sonra yaranmış icra orqanının qarşısında duran ən vacib problem kadrlarla iş, kadrların seçilməsi problemi oldu. Bu iş hakimiyyətsizliyə, siyasi səndələmələrə son qoymaq və xalqın itmiş inamını geri qaytarmaq sahəsində görülən işlərlə yanaşı aparılırdı. Əlbəttə, köhnə, yaşlı kadrların müəyyən hissəsi yeni şəraitə uyğunlaşa bilmədilər, müəyyən hissəsi isə yeni şəraitin vəzifələrini kifayət qədər tez və inamla mənimsədilər. Bu köhnə və yeni, gənc rəhbər kadrlar işdə sabitlik və həm də müəyyən qədər səliqə, səhman yarada bildilər. Lakin aydın idi ki, müasir tələblərə cavab verəcək yeni tipli rəhbər kadrlar heç də öz-özünə avtomatik olaraq yaranmayacaq, onları tədricən hazırlamaq lazım idi. Çünki idarəçi kadrlar hər zaman olduğu kimi, indiki zamanda da millətin, xalqın "qızıl fondunu" təşkil edir. Ölkənin bugünü və sabahı onların peşəkarlıq səviyyəsindən çox asılıdır.

Kadrlarla işin təkmiləşdirilməsi, bu işin daim yeni məzmunla zənginləşdirilməsində dövlət başçısının respublika, şəhər, rayon, müəssisə, təşkilat, birlik və digər təsərrüfat subyektlərinin rəhbər idarəçi kadrları ilə müxtəlif səviyyələrdə müntəzəm keçirdiyi çoxlu müşavirə və görüşlər olduqca böyük əhəmiyyət kəsb edir. Son illərdə prezident aparatı və şəxsən ölkə başçısının qayğısı nəticəsində kadrlarımızın tərkibi xeyli gəncləşdirilmişdir. Ölkəmizdə "Dövlət Qulluğu" haqqında Qanunun qəbul edilməsi və eləcə də Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurasnın yaradılması bu baxımdan mühüm əhəmiyyətə malikdir. Cənab Prezidentin irəli sürdüyü və qarşıya qoyduğu mühüm vəzifələrdən biri də təbiidir ki, idarəçi kadrlara olan yeni tələblər, kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması işinə yeni tərzdə yanaşmağı, bu sistemin özünü yenidən qurmağı tələb edirdi. Cənab Heydər Əliyevin diqqət və qayğısı ilə bu iş də yenidən quruldu. Cənab Prezidentin diqqət və qayğısı ilə Dövlət İdarəçilik Akademiyası yaradıldı. Bu dövlət qurumlarına rəhbərlikdə peşəkarlığın və kompetentliyin artması istiqamətində ölkə başçısının atdığı növbəti vacib və zəruri addımdır. Prezidentin bu müdrik qərarı dövlət xidməti sisteminə istedadlı, bacarıqlı, zəkalı, əxlaq və mənəviyyatca təmiz olan gənclərin cəlb olunması, bunun üçün onlara yüksək səviyyəli müasir təhsilin verilməsi istəyindən irəli gəlmişdir. Belə bir müasir elm və təhsil müəssisəsinin yaradılması dövlətimizin möhkəmlənməsi və elmi əsaslarla idarə olunması baxımından yeni mərhələnin başlanğıcı kimi çox böyük əhəmiyyətə malikdir. Mövcud olduğu dörd il müddətində artıq ixtisasartırma kurslarından 678 nəfər dinləyici keçmiş, Akademiyanı 145 nəfər müdavim bitirmiş, 232 nəfər müdavim isə hazırda təhsilini davam etdirməkdədir.

İdarəçilik cəmiyyətə xas olan obyektiv, qanunauyğun bir işdir. Onun həyata keçirilməsi üçün hakimiyyət lazımdır. Burada idarəçilik subyektini kimin həyata keçirməsindən, ona verilmiş bu hakimiyyətdən necə və hansı məqsəd üçün istifadə etməsindən çox şey asılıdır. Burada şübhəsiz ki, hakimiyyəti həyata keçirən şəxsin keyfiyyəti, liderliyin mahiyyəti məsələsi vacib bir məsələ kimi ortaya çıxır.

XX və XXI əsrlərin qovşağında dünya miqyasında ən mötəbər liderlərdən biri kimi etiraf edilən, qəbul edilən liderlərdən biri, məhz Azərbaycan Prezidenti cənab Heydər Əliyevdir. Bununla belə cəmiyyətimizin, dövlətçiliyimizin gələcəyi üçün yeni-yeni siyasi liderlərin hazırlanması və formalaşması məsələsi də mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Aydındır ki, Azərbaycan cəmiyyətinin gələcəyi, bugün əldə edilmiş nailiyyətlərin möhkəmləndirilməsi, siyasi sabitliyin qorunub saxlanılması və gələcək inkişafımızın təmin edilməsi gələcək yeni siyasi liderlərin formalaşdırılmasından çox-çox asılıdır. Bu mənada liderliyə iddia edən gərək yüksək təhsilli, kamil bir şəxsiyyət olmaqla bərabər, idarəçilik təcrübəsinə, adamları öz arxasınca aparmağa qadir olmaqla, xalqına, Vətəninə bağlı adam olsun. Çox təəssüflər olsun ki, yaxın tariximizin müəyyən bir dövründə Azərbaycana həm də onun tarixinin çox məsuliyyətli bir dövründə onun tarixinə, mədəniyyətinə, dilinə, dininə, öz xalqına hörmətlə yanaşmayan adamlar rəhbərlik etdilər və bu səriştəsiz rəhbərlər xalqımızı çox böyük fəlakətlərə düçar etdilər. Bugün ölkə yeni prezident seçkilərinə getdiyi bir zamanda biz gərək tarixin bu ibrət dərslərini heç bir zaman yaddan çıxarmayaq.

Siyasi partiyaların və ictimai təşkilatların rəhbərləri öz şəxsi məsuliyyətləri haqqında daim düşünməli və həm də cəmiyyətdə fəal vətəndaşlar yetişdirmək borclarını yaddan çıxarmamalıdırlar. Onlar müəyyən bir qrup adamların mənafeyini əks etdirsələr də, nəsildən-nəslə keçirilən milli dayaqlarımızın və milli dəyərlərimizin qorunması sahəsindəki məsuliyyətlərini də unutmamalıdırlar. Bugün Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan cəmiyyətində yaradılmış sabitliyin, iqtisadiyyatın, elmin, təhsilin, mədəniyyətin inkişafı sahəsində görülmüş böyük işlərə hörmətlə yanaşmalı, Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsi sahəsindəki nailiyyətləri ləkələyib gözdən salmağa çalışmamalıdırlar.

Ölkə prezident seçkilərinə geniş hazırlıq mərhələsinə qədəm qoyur. İqtidar müxalif qüvvələrlə dialoqa hazır olduğunu bildirir. İctimai birliklərə, siyasi partiyalara hər cür şərait yaradılır ki, ümumi işimiz üçün, ümumxalq işi üçün fəal fəaliyyət göstərə bilsinlər. Təbiidir ki, partiya və ictimai birliklərin rəhbərləri xalq içərisində ancaq o zaman ictimai dayaq tapa bilərlər ki, onlar vətəndaşların mənafeyini öz partiyaları və öz şəxsi ambisiyalarından üstün tuta bilsinlər.

Heydər Əliyevin rəhbərliyi altında ölkəmizin müəyyən etdiyi xətt özünün düzgünlüyünü və həyatiliyini artıq keçən illərdə təsdiq etmişdir. Bu xətt gələcəkdə də davam etdirilməlidir. Bu xəttin gələcəkdə də davam etdirilməsində hər bir yeni mərhələ, hər bir addım getdikcə daha çətin olacaqdır. Çünki gələcəkdə cəmiyyətimiz qarşısında duracaq vəzifələrin miqyası və əhəmiyyəti daha çox artacaqdır. Şübhəsiz ki, belə bir şəraitdə fəaiyyət göstərən hər bir rəhbər işçi, hər bir idarəçi dövrün, zamanın, XXI əsrin tələblərini nəzərə almalıdır.

Bugün müstəqil Azərbaycanda çoxlu bacarıqlı, istedadlı gənclər yetişib və yetişir. İlham Əliyev bu istedadlı gənclərimizin ən istedadlısı, onların öndəri, onları öz ətrafında toplayıb irəli aparan böyük bir qüvvə, gənclərin çox layiqli bir lideri və sevimlisidir. O, müstəqil Azərbaycanın siyasi səmasında parlayan yeni bir ulduzdur.

Dövlətimizin gənclər siyasətinin həyata keçirilməsində İlham Əliyevin gördüyü böyük işlər bizi, nəinki razı saldı, məmnun və həm də valeh etdi. Müstəqilliyimizin gələcəyinə ümid və inamımızı möhkəmləndirdi.

İllər keçdi, müstəqilliyimizlə yanaşı, İlham Əliyev də irəli getdi, yaşa doldu, daha çox püxtələşdi, zəngin təcrübə topladı, siyasət meydanında bərkidi, gənclərimizi, xalqımızı və özünü dünyaya tanıtdı. Xalq arasında Heydər Əliyev siyasətinin layiqli davamçısı kimi şöhrət qazandı.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında saymaqla qurtarmayan çox böyük xidmətlərindən biri də məhz İlham Əliyevdir.

İlham Əliyev Heydər Əliyevin Azərbaycan əsərinin ən maraqlı bir fəslidir. O, Heydər Əliyevin dövlət idarəçilik məktəbinin ən qüdrətli yetirməsi, Heydər Əliyevin dövlət idarəçiliyi sahəsindəki zəngin təcrübə xəzinəsinin ən dəyərli incisidir.

Biz azərbaycanlılar, Azərbaycanımızın, müstəqilliyimizin bugün çox böyük problemlərlə, çətinliklərlə qarşılaşdığı bir zamanda, müstəqilliyimizin belə bir məsuliyyətli dövründə, dünyamızın çox narahat bir vaxtında İlham Əliyev kimi bir siyasi xadimin varlığından iftixar duyuruq.

Azərbaycanlılarda irsə, ənənəyə həmişə hörmət, inam və sədaqət olub. Məhz buna görə də şübhə yoxdur və biz buna tam əmin ola bilərik ki, İlham Əliyev Heydər Əliyev irsinin, onun siyasətinin, onun ideyalarının layiqli davamçısı olacaqdır. Bununla belə, qeyd etmək istərdim ki, İlham Əliyevin bugünkü fəaliyyəti, onun bugün gördüyü işlər deməyə əsas verir ki, o, Heydər Əliyev ideyalarının sadəcə davamçısı yox, eyni zamanda bu ideyaları XXI əsrin tələblərinə, dövrün, zamanın ruhuna uyğun olaraq təkmilləşdirəcək və inkişaf etdirəcəkdir.

Biz onu bugün hələ ancaq bacarıqlı bir təşkilatçı, yüksək erudisiyalı kamil bir siyasət adamı kimi tanıyırıq. Ancaq unutmamalıyıq ki, onun yüksək elmi təfəkkürü, nəzəri hazırlığı hələ Moskvada o zamanlar ən nüfuzlu ali təhsil müəssisəsi olan Beynəlxalq Münasibətlər İnstitutunda təhsil aldığı və sonra da orada müəllim işlədiyi dövrdə formalaşmışdır. Bu çox vacib cəhət və eləcə də onun rus, ingilis, fransız dillərini mükəmməl bilməsi bu son dərəcə istedadlı şəxsiyyətin siyasət aləmində uğurlu gələcəyi, Azərbaycan üçün görəcəyi böyük və səmərəli işlər barədə nikbin düşünməyə əsas verir.

Azərbaycanın, müstəqilliyimizin gələcəyini düşünən hər bir kəs onunla fəxr etməli, onun qədrini bilməli, onu qorumalıdır.